1_Layout 1 31.10.2018 13:10 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 21 (537)

01 noyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SÖZLƏ ƏMƏLİN VƏHDƏTİ - BƏŞƏRİYYƏTİN İNKİŞAFINA XİDMƏT EDƏN QLOBAL TƏŞƏBBÜSLƏR

***Müasir dünyamızda nəzərəçarpan ən müsbət meyillərdən biri müxtəlif aktual məsələlərin həlli məqsədilə qlobal əməkdaşlığa marağın getdikcə artmasıdır.***

***Artıq hər kəs fərqindədir ki, bütün bəşəriyyəti təhdid edən ayrı-ayrı problemlərin həlli, fərqli mədəniyyətlər mühitində birgəyaşayış normalarının qorunması, bu mühitdə qazanılmış mənəvi nailiyyətlərin daha da inkişafı, cəmiyyətlərin gələcək tərəqqisi üçün geniş imkanların yaradılması təkcə bir ölkənin bacardığı iş deyil. Bundan ötrü dövlətlərin, cəmiyyətlərin bir araya gəlməsinə, tanınmış görkəmli xadimlərin, alimlərin, dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələri arasında ardıcıl dialoqların aparılmasına ehtiyac var.***

***Sizlərə ixtisarla təqdim etdiyimiz jurnalist İradə Əliyevanın "Azərbaycan" qəzetində bu mövzuda dərc olunan məqaləsi olduqca maraqlı məqamlara aydınlıq gətirir.***




### Tarixi missiya

Belə faydalı təşəbbüslərin reallaşması-nı öz üzərinə götürərək müxtəlif beynəlxalq tədbirlərə, eləcə də humanitar forumlara uğurla evsahibliyi edən Azərbaycan son illər bütün dünyada dialoq məkanı kimi tanınıb. Oktyabrın 25-26-da Heydər Əliyev Mərkəzində keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu da bu tarixi missiyanın davamıdır.

2010-cu ildən təşkil olunan forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. İndiyə qədər keçirilmiş ənənəvi forumların hər biri dövrümüzün ayrı-ayrı aktual problemlərinə həsr edilib.

Bakı Beynəlxalq Humanitar Forumunun artıq altıncı dəfə keçirilməsi onu göstərir ki, Azərbaycan bu gün beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox əhəmiyyətli ölkədir. 90-dan çox ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən çox nümayəndənin, o cümlədən elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarının, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, siyasət, elm, mədəniyyət xadimlərinin qatıldığı VI Bakı Beynəlxalq Humanitar Forumu da 3-cü minillikdə xüsusilə mühüm maraq kəsb edən bir mövzuya həsr edilib: "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı".

### "Bakı prosesi" davam edir

Həyata keçirdiyi məqsədyönlü siyasətin, irəli sürdüyü beynəlxalq təşəbbüslərin uğurları ilə təkcə Azərbaycan insanlarının deyil, ümumən bəşəriyyətin rifahına xidmət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış nitqində humanitar məsələlərin müzakirəsinin əhəmiyyətini bir daha diqqətə çatdırdı. Humanitar əməkdaşlığa xüsusi önəm verən ölkələrdən biri kimi Azərbaycanda bu məqsədlə keçirilmiş mötəbər beynəlxalq tədbirləri, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu, dünya dinləri liderlərinin Bakıda keçirilmiş zirvə görüşünü, dörd dəfə ölkəmizdə təşkil edilən Mədəniyyətlərarası dialoq forumunu xatırlatdı.

Prezident İlham Əliyevin qeyd etdiyi bu beynəlxalq humanitar əməkdaşlıq formatlarının hər biri bu il 10 illiyi tamamlanan "Bakı prosesi"nin tarixi nailiyyətləridir. Bu il "Bakı prosesi"nin 10-cu ildönümünün qeyd edilməsilə bağlı dövlət başçısı tərəfindən xüsusi sərəncam imzalanmışdır. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ölkəmizin yüz illərlə formalaşdırdığı mədəni müxtəliflik, tolerantlıq, fərqli mədəniyyətlərə hörmət ənənələri dayanır.

Ötən on il ərzində Azərbaycanda "Bakı prosesi" çərçivəsində, həmçinin, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbir gerçəkləşdirilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü və böyük uğurla reallaşdırılan layihələr bu istiqamətdə qarşıya qoyulmuş hədəflərin əldə olunmasına xüsusilə böyük töhfə verib.

### Bizim məqsədimiz

Azərbaycan Prezidenti çıxışında ölkəmizin gördüyü bütün bu işlərin məqsədini, məramını kifayət qədər dəqiq ifadə etdi: "Bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın". Bu siyasətə uyğun olaraq Azərbaycan tarixi İpək yolunun bərpası, "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Ba-kı-Tbilisi-Qars", "Cənub qaz dəhlizi" kimi qlobal enerji-kommunikasiya layihələri ilə Şərqlə Qərbi təkcə maddi mənada bir-birinə bağlamır. Dünyada sülh və sabitliyə təkcə bu layihələrin qlobal iqtisadi-siyasi səmərəsi ilə fayda vermir. Şərq mədəniyyəti ilə Avropa dəyərlərini tarixən özündə qovuşduran müasir Azərbaycan cəmiyyəti Şərqlə Qərbi mədəniyyət müstəvisində də dialoqa çəkir. Hər iki qütbün ən müsbət xüsusiyyətlərinin tərcümanı rolunda çıxış edir.

2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı olan Bakıda 3 il sonra - 2012-ci ildə "Eurovision" Beynəlxalq Mahnı Müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə İslam Oyunlarının yüksək səviyyədə təşkili bunun bariz ifadəsidir. Bütün bunlara nail olmaq ilk baxışdan göründüyü qədər də asan deyil. Amma ölkə rəhbərliyinin ortaya qoyduğu siyasi iradə, nümayiş etdirdiyi qətiyyətli mövqe bəzən mümkünsüzü də mümkün edir. Bu, Azərbaycan dövlətinin tutduğu inkişaf yoludur. Bu cür qlobal forumlar Azərbaycanın özünün üzləşdiyi humanitar fəlakətin, ərazilərimizin 20 faizindən çoxunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı nəticəsində yaşadığımız acıların, tarixi həqiqətlərimizin dünyaya göstərilməsi baxımından da çox mühümdür.

Prezident İlham Əliyev Azərbaycanın qısa müddətdə əldə etdiyi bu uğurların formulunu bir müddət əvvəl xarici mətbuata - Rusiyanın TASS İnformasiya Agentliyinə verdiyi müsahibəsi zamanı belə şərh etmişdi: **"Zənnimcə, qısa şəkildə şərh etsək, millətlərarası, dinlərarası həmrəyliyin bu cür yüksək səviyyəsinə necə nail olmağımız onunla bağlıdır ki, biz bu barədə yalnız danışmırıq, həm də bu istiqamətdə düşünürük və fəaliyyət göstəririk. Əgər dünyada bu cür yanaşma üstünlük təşkil etsə, bu zəmində problem olmayacaq".**

**Bəli, Azərbaycanın uğur formulu budur: sözlə əməlin vəhdəti.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



***Azərbaycan Respublikasının Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Rusiya Federasiyasının Daxili İşlər Naziri, RF-nin polis generalı Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.***

***Səfərdə əsas məqsəd hər iki ölkənin sərhədyanı ərazilərində daxili işlər orqanlarının birgə fəaliyyətinin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun növbəti iclasında iştirak etmək idi.***

Oktyabrın 23-də xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclası öz işinə başlayıb.

Nazir Ramil Usubov tədbiri giriş sözü ilə açaraq Rusiya Federasiyasının Daxili İşlər Naziri Vladimir Kolokoltsevi və başçılıq etdiyi nümayəndə heyətini salamlayıb, toplantının işinə uğurlar arzulayıb.

Gündəlikdəki məsələlər üzrə çıxış edən nazir R.Usubov bu gün iki ölkə arasındakı əlaqələrin bütün sahələrdə inkişaf edərək yeni mərhələyə qədəm qoyduğunu, Prezidentlər-cənab İlham Əliyev və cənab Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq, ölkələrimiz arasında strateji tərəfdaşlıq, cəmiyyət həyatının ən müxtəlif sahələri üzrə işbirliyinin və inteqrasiyanın daha da dərinləşdiyini, ikitərəfli münasibətlərdə hüquq-mühafizə fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Nazirliklər arasında əməkdaşlığın əsas prioritetlərindən birinin sərhədyanı bölgələrdə ictimai təhlükəsizliyin, dayanıqlı sabitliyin etibarlı təmini olduğunu nəzərə çatdıran nazir qarşıya qoyulan bütün vəzifə və verilən tapşırıqların birgə səylərlə uğurla yerinə yetirildiyini, bu işdə İşçi Qrupun da önəmli rola malik olduğunu məmnunluqla xatırladıb.

O, Rusiya Federasiyası Dağıstan Respublikasının Daxili İşlər Nazirliyi ilə də səmərəli əməkdaşlığın mövcudluğunu, tərəflər arasında daimi informasiya mübadiləsi aparıldığını, ən müxtəlif səviyyələrdə görüşlərin həyata keçirildiyini, qarşılıqlı faydalı işbirliyinin müsbət nəticələrinin olduğunu, müxtəlif istiqamətlərdə, o cümlədən, cinayətlərin açılmasını, axtarışda olanların tutulmasını, onların ekstradisiyasını, sərhədyanı regionlarda birgə razılaşdırılmış tədbirlərin keçirildiyini bildirib.




Yarandığı vaxtdan indiyədək İşçi Qrupun birgə əməliyyat-profilaktiki tədbirlərin təşkili və həyata keçirilməsində xeyli müsbət təcrübə qazandığı, bununla da ümumi işə öz töhfəsini verdiyi nəzərə çatdırılıb. Qeyd olunub ki, "Sərhəd-Sipər" kompleks əməliyyat-profilaktik tədbirlərin keçirildiyi təkcə son 5 il ərzində Azərbaycan tərəfindən 535 odlu silah, 43 min ədəd hərbi sursat aşkarlanaraq götürülüb, axtarışda olan 202 nəfər, o cümlədən Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən axtarılan 85 nəfər tutulub.

Nazir beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni çağırış və təhdidlərinin artaraq qlobal xarakter aldığını, ekstremizmi, aqressiv separatizmi təbliğ edən radikal elementlərin vaxtında müəyyənləşdirilməsi və qanunsuz fəaliyyətlərinin qarşısının alınması istiqamətində hər iki tərəfdən fəal əməliyyat-profilaktiki tədbirlərin həyata keçirilməsinin vacibliyini, bu istiqamətdə müsbət nəticələrin əldə edildiyini diqqətə çatdırıb. Cənab R.Usubov cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması, axtarışda olanların tutularaq ekstradisiya olunması, kadr hazırlığı və qarşılıqlı maraq doğuran informasiya mübadiləsi sahələrində köməyə, əlaqələrin inkişafına göstərdiyi diqqətə, əməkdaşlığımıza böyük şəxsi töhfəsinə görə cənab V.Kolokoltsevə təşəkkürünü bildirib.

Rusiya Federasiyasının Daxili İşlər Naziri, RF-nin polis generalı Vladimir Kolokoltsev qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə azərbaycanlı həmkarına minnətdarlığını ifadə edib. İki ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın genişləndirilməsinə Rusiya tərəfinin hər zaman böyük önəm verdiyini, xüsusiləşdirilmiş İşçi Qrupun növbəti iclasının Bakıda keçirilməsini bunun əyani təzahürü olduğunu qeyd edən rusiyalı nazir hazırkı səfərlərinin də beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacağına, bunun son vaxtlar iki nazirlik arasındakı ənənəvi sıx peşəkar əlaqələrin məqsədyönlü şəkildə yeni məzmunla, müasir forma və metodlarla zənginləşməsinə xidmət edəcəyinə əminliyini vurğulayıb.

V.Kolokoltsev bu səfərin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli hadisə olacağına, eyni zamanda, əməliyyat-xidməti fəailiyyətin bütün sahələrində əməkdaşlığı dərinləşdirməyə əlavə impuls verəcəyinə inandığını bildirib.

İclasda sərhədyanı ərazilərdə ictimai təhlükəsizliyin təmini və birgə razılaşdırılmış səylərin səmərəliliyinin artırılması istiqamətində Azərbaycan və Rusiya DİN-lərin əməkdaşlığının vəziyyəti, xüsusiləşdirilmiş İşçi Qrupun fəaliyyəti, 2019-2020-ci illərdə həmsərhəd ərazilərdə onun təşkilati-praktik tədbirlər planını, bu il keçirilmiş "Sərhəd-Sipər" kompleks əməliyyat-profilaktik tədbirlərinin yekunları müzakirə edilib.

İclasda xüsusiləşdirilmiş İşçi Qrupunun hər iki ölkədən olan həmsədrlərinin - RF-nin Dağıstan Respublikasının Daxili İşlər Naziri, polis general-leytenantı Abduraşid Maqomedovun və Azərbaycan DİN BCAİ-nin rəisi, polis general-mayoru Arzu Daşdəmirovun məruzələri də dinlənilib.

Tədbir nazirlərin iştirakı ilə yekun sənədlərin, o cümlədən sərhədyanı ərazilərdə birgə fəaliyyətin razılaşdırılması və əlaqələndirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin xüsusiləşdirilmiş İşçi Qrupunun Bakı iclasının Protokolunun imzalanması ilə başa çatıb.

2_Layout 1 31.10.2018 13:06 Page 1



# XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ DƏSTƏSİNİN QADIN HƏRBİ QULLUQÇULARI VƏ SÜVARİLƏRİ ÜZƏRİLƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİRLƏR

***Bu gün ölkəmiz bir çox idman yarışlarına, musiqi festivallarına və mədəni-kütləvi tədbirlərə evsahibliyi edir. Qeyd olunan bu çoxşaxəli tədbirlərin yüksək təşkilatçılıqla keçirilməsində təhlükəsizliyin təmin olunması vacib şərtdir.***

***Belə mötəbər tədbirlər zamanı digər hüquq-mühafizə qurumları ilə yanaşı, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də ictimai təhlükəsizliyin təmin edilməsi və ictimai qaydanın qorunmasında yaxından iştirak edir.***

Yaşayış məntəqələrində, kütləvi tədbirlərin keçirildiyi ərazilərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə qadın hərbi qulluqçular da cəlb olunur.

67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin qadın hərbi qulluqçuları bu baxımdan üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Tədbirlərin keçirildiyi yerlərdə, yaşayış və qeyri-yaşayış obyektlərində olan nəzarət-buraxılış məntəqələrində əraziyə daxil olmaq istəyən xanımların yoxlanışı onlar tərəfindən həyata keçirilir. Eyni zamanda, onlar orada baş verə biləcək hər hansı bir xoşagəlməz hadisənin qarşısının alınmasında da yaxından iştirak edirlər. Hərbi hissə komandanlığının qarşıya qoyduğu tapşırıqları daima yüksək səviyyədə icra etmək məqsədilə dəstənin digər qrupları kimi qadın hərbi qul-luqçuları mütəmadi olaraq nəzəri, eləcə də praktiki məşğələlərə cəlb olunurlar. Nəzəri məşğələlərdə şəxsi heyətin hərbi bilikləri artırılır, təhkim olunmuş xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərinə də-rindən yiyələnir, onlardan məharət-lə istifadə etmə qaydaları öyrədilir. Praktiki təlimlərdə praktiki vərdişlər təkmilləşdirilir və fiziki təlimlər keçirilir. Təlim və məşğələlərdə fəallıqları ilə seçilən hərbi qulluqçulardan gizir Günay Əliyevanın, çavuş Aynur Heydərovanın, əsgərlərdən Qəmər Zamanlının, Günel Qorçiyevanın və Mədinə Heydərovanın adlarını qeyd edə bilərik.





Mötəbər tədbirlər zamanı ərazi şəraitinə görə nəqliyyat vasitələrinin istifadəsi üçün çətin olan və ya mümkün olmayan yerlərdə digər bir sahənin - xidməti atların fəaliyyəti də ölçüyəgəlməzdir.

Süvari qrupunun təhkim olunduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Vüqar Şirinov minik atlarının xüsusi qulluq, eyni zamanda qayğı tələb etdiyini bildirdi. Tapşırılmış işin öhdəsindən layiqincə gəlmək üçün öncə atların xarakteristikasına, sonra vücud quruluşuna yaxşı bələd olmaq lazımdır. Həmçinin, heyvanların lazımi səviyyədə yetişdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Bildirdi ki, bu istiqamətdə sözügedən bölmə öz işinin öhdəsindən layiqincə gəlir.

Məntəqədə atlar əsasən üç növə aiddir: ingilis, budyonovski və axaltəki. Günün nizam qaydalarına uyğun olaraq atlar səhər və axşam bir saat olmaqla gəzdirilir. Gəzdirildikdən sonra atlar qaşovlanır, daranır, dırnaqlara qulluq edilir və suvarılır. Qidalanmaya gəldikdə, atlar gündə altı dəfə üçündə arpa ilə, üçündə isə otla yemlənir. Bundan başqa, diniklərin təmizlənməsi, eyni zamanda atların sağlamlıq durumları da ciddi nəzarətdə saxlanılır.

Xidməti atları yetişdirmə məqsədilə təhkim olunmuş hərbi qulluqçularla birgə atlara həftənin çərşənbə axşamı və cümə axşamı praktiki təlimlər, şənbə günü isə şəxsi heyətə nəzəri məşğələlər keçirilir. Praktiki təlimlərdə atların təhkim olunduğu şəxsi heyətə at ləvazimatlarına qulluq və at sürmə qaydaları öyrədilir. Nəzəri məşğələlərdə isə "Atların xarakterik xüsusiyyətləri", "Atların yerləşdirilməsi və saxlanılması", "Atlara qulluq", "Atların xəstəlikləri və onların profilaktikası", "Yerin təbii şəraitinə uyğun at sürmə" və s. mövzular tədris olunur. Bu da həm atların yetişdirilməsində, həm də onların təhkim olunduğu hərbi qulluqçuların bilik və bacarıqlarının, habelə peşə vərdişlərinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Görülən işlərdə süvari qrupunun komandiri gizir Asim Səmədovun da əməyi təqdirəlayiqdir.





**kapitan Teymur Əlizadə**

# KOMANDA-QƏRARGAH TƏLİMİ



Oktaybr ayının 30-da "2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na əsasən, Baş İdarənin və Bakı qarnizonu hərbi hissələrinin komandir heyətilə "Cinayət törətmiş silahlı şəxsin (şəxslərin) tutulması və zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatda taborun (dəstənin), əlahiddə bölüyün fəaliyyəti" mövzusunda komanda-qərargah təlimi keçirilib.

Komanda-qərargah təliminin təşkil olunub keçirilməsi üçün Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı və Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi tərəfindən müvafiq sənədlər təsdiq edilib, aidiyyəti idarə, şöbə və xidmətlərinə, həmçinin, təlimə cəlb olunan hərbi hissələrə göndərilib. Komanda-qərargah təlimin keçirilməsinə hazırlıq mərhələsində təlimin keçirilməsi üçün əməliyyat şəraiti işlənilib, ilkin məlumatlar aydın-aşdırılaraq, aidiyyəti şəxslərə tapşırıqlar verilib. Təlimə cəlb edilən bölmələrin və şəxsi heyətin sayı dəqiqləşdirilib, eləcə də təlimin keçirilmə ardıcıllığı müəyyən edilib.

Təlimin keçirilməsi üçün Daxili Qoşunların Baş İdarəsinin Qərargahı tərəfindən əməliyyat şəraitinin plan-sxemi, əyani vəsaitlər, Şəxsi heyət üzrə İdarə tərəfindən əməliyyata cəlb edilən şəxsi heyətlə mənəvi-psixoloji hazırlıq, Maddi-texniki təminat İdarəsi tərəfindən əməliyyatın maddi-texniki təminat planları hazırlanıb.

Komanda-qərargah təliminin gedişatı zamanı hər bir mərhələdə aidiyyəti vəzifəli şəxslərdən fəaliyyət istiqamətləri üzrə məruzələrin qəbul edilməsi təmin edilib.

Təlimin gedişatında ilkin mərhələdə xüsusi əməliyyatın keçirilməsi üçün hərbi hissələrin döyüş hazırlığına gətirilməsi tapşırığı qoyulub.

Növbəti mərhələdə əməliyyatın keçirilməsi üzrə cinayətkar qrupun saxlandığı koordinatlar və onların zərərsizləşdirilməsi üsulları müəyyən edilib. Bu məqsədlə silahlı cinayətkarların gizlənməsi ehtimal olunan yerdə əhatəyə alınması, qaçmağa cəhd edən cinayətkar qrupun təqib edilməsi, təqibdən yayınan cinayətkarların təkrar axtarışı və yaxalanması halları xəritə üzərində işlənilib, birlikdə müzakirə edilib. Bu mərhələdə bölmələrin birgə fəaliyyətinin koordinasiya edilməsi və daha da təkmilləşdirilməsi də diqqətdə saxlanılan məsələlərdən olub.

Sonuncu mərhələdə xüsusi əməliyyatın başa çatması və cəlb olunan qüvvələrin daimi dislokasiya yerinə qayıtması üzrə tapşırıqlar nəzərdən keçirilib.

Hər bir mərhələ üzrə məruzəçilərin çıxışlarından sonra müzakirələr aparılıb, ortaya çıxan suallar cavablandırılaraq, aidiyyəti üzrə daimi hazırlıq istiqamətləri müəyyən edilib.

**Mətbuat xidməti**

# TİBB XİDMƏTİ QARŞISINA QOYULAN TAPŞIRIQLARI MƏSULİYYƏTLƏ YERİNƏ YETİRİR

**Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin tibb xidmətinin hərbi qulluqçuları vəzifələrinin məsuliyyətini dərindən dərk edərək, qoyulan tələbləri vaxtında və keyfiyyətlə yerinə yetirirlər.**



Tibb xidməti rəisi tibb xidməti kapitanı Emil Fərmanlı bildirdi ki, xidmət öz işini günün nizam qaydalarına uyğun olaraq təşkil edir. Belə ki, ilk olaraq xəstələrin ümumi vəziyyəti barədə növbətçi həkimin məruzəsi dinlənilir. Daha sonra xidmətin hərbi qulluqçuları ilə müşavirə keçirilir və tibb personalına müvafiq tapşırıqlar verilir. Xəstələrin ümumi vəziyyəti müzakirə edildikdən sonra stasionar müalicədə olanlara baxış keçirilir, səhhətləri, müvafiq müalicə prosedurları diqqət mərkəzində saxlanılır: "Ümumilikdə, hərbi qulluqçular maksimum 14 gün ərzində stasionar müalicədə ola bilər, bundan sonra ya müalicələrini başa çatdırmalı, ya da ətraflı müayinə olunması üçün Daxili Qoşunların Hərbi Qospitalına göndərilməlidirlər".

Tibb xidməti kapitanı E.Fərmanlı hazırda tibb məntəqəsində stasionar müalicə alan hərbi qulluqçuların vəziyyətlərinin stabil olduğunu və gündəlik olaraq nəzarətdə saxlanıldığını da sözlərinə əlavə etdi.

Həmçinin, qarovul xidmətinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, səhhətində hər hansı problem aşkarlanan hərbi qulluqçu xidmətdən dərhal azad edilir və lazımi müayinə təyin edilir.

Hazırda tibb xidmətində stomatoloq tibb xidməti baş leytenantı Samir Aslanlı, terapevt tibb xidməti kapitanı Günay Bədəlova, feldşer-aptek rəisi vəzifələrini icra edən gizir Günay Rzayeva və sanitar-təlimatçı, dezinfektor baş çavuş Aqil Hüseynov vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Xidmət rəisi ilə söhbət zamanı o da bəlli oldu ki, şəxsi heyətin tibbi cəhətdən maariflənməsi məqsədilə sanitar-təlimatçılarla ildə 4 dəfə bir ay olmaqla kurslar təşkil olunub keçirilir. Kursu müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara "Sanitar-təlimatçılar üçün yaddaş kitabçası" paylanır. Kitabçada travmalar, sınıqlar, qanaxmalar, yanıqlar, donmalar zamanı ilkin yardımın göstərilməsi, yoluxucu xəstəliklərdən qorunma üsulları, ümumi gigiyena qaydaları, həmçinin, istivurma, günvurma zamanı həyata keçirilən profilaktika tədbirləri haqqında əhəmiyyətli məlumatlar öz əksini tapıb. Bu da öz növbəsində, tibb xidmətinin şəxsi heyətinin nəzəri biliklərinin artırılmasında mühüm rol oynayır.

**baş leytenant Xədicə Hacızadə**

# BAXIŞ-MÜSABİQƏNİN YEKUNLARI MƏLUM OLUB

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən cari ilin sentyabr ayının 1-dən oktyabr ayının 2-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində və hərbi hissələrində təbliğat və təşviqat işinə, özfəaliyyət kollektivlərinə baxış-müsabiqə keçirilib. Müsabiqə zamanı Ali Hərbi Məktəb, 12318 və 25032 saylı hərbi hissələr daha yüksək nəticələr əldə edərək fərqlənməyi bacarıblar.

Təbliğat və təşviqat işində 25031, 17071, 16073, 16077, 17074, 67987, 99713 və 16075 saylı hərbi hissələrin bölmələrinin ictimai-siyasi və mədəni-maarif otaqlarının, qarovul məntəqələrinin, klub və kitabxanaların, döyüş şöhrəti otaqlarının tərtibatı qənaətbəxş olub.

Özfəaliyyət kollektivlərinə keçirilən baxış-müsabiqə zamanı əksər hərbi hissələrdə proqramın rəngarəngliyinə, müxtəlif bölmələr üzrə ifa məharətinə, səhnədə çıxışların nizamı və düzgün ardıcıllığına diqqət yetirilib. Hərbi-vətənpərvərlik mövzusunun dolğun əks olunması baxımından 99713, 16077, 25033, 17072 və 17074 saylı hərbi hissələrin özfəaliyyət kollektivləri daha çox seçilib.

Qeyd edək ki, baxış-müsabiqənin nəticələrinə görə ilk üç yeri tutmuş hərbi hissələr, eyni zamanda, xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçular hərbi hissə komandirlərinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

**leytenant Nigar Ağayeva**

XİDMƏTDƏ NAİLİYYƏTLƏR

# Təqdirəlayiq sayıqlıq nümunəsi

Daxili Qoşunların hərbi qulluqçuları xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı yüksək məsuliyyət və sayıqlıq nümayiş etdirirlər. Bu da şəxsi heyətin nümunəvi mənəvi-psixoloji və döyüş hazırlığından irəli gəlir. Hərbi qulluqçularımızın xidmətdə nailiyyətləri haqlı qürur hissi doğurur.

Oktyabrın 25-də Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində "Qarabağ"-"Vorskla" komandaları arasında keçirilmiş futbol oyunu zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə Daxili Qoşunların Baş İdarəsi, 67987 və 99713 saylı hərbi hissələrinin şəxsi heyəti cəlb olunub. Xidmətin aparılması zamanı hərbi qulluqçumuz sayıqlıq göstərib. Belə ki, saat 19.55 radələrində Bakı Olimpiya Stadionunun giriş sektorunda qurulmuş nəqliyyat postunda xidmət aparan 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkamçısı, müddətdən artıq hərbi xidmət edən baş çavuş Elşad Mahmudov tərəfindən avtomobilə baxış keçirilərkən 71 ədəd sperlinq ov gülləsi aşkar olunub. Tapılmış ov gülləri aidiyyəti üzrə yerli polis orqanına təhvil verilib.



**Mətbuat xidməti**

3_Layout 1 31.10.2018 13:16 Page 1



*Şəhidlərimiz*

# Vətənin harayına səs verdi, ölümlü-itimli döyüşlərə atıldı...

***1992-1994-cü illərdə respublikamızın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdən uzun illər keçsə də, bu gün şəhid hərbi qulluqçularımız barədə sənədli materialların tədqiq olunması, itkin düşmüşlərin taleyinə aydınlıq gətirilməsi yönündə araşdırmalar davam etdirilir. Bu günədək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəhid hərbi qulluqçuları haqqında xeyli sayda məqalə dərc olunub. Həmin məqalələr arxiv sənədlərinə, müharibə veteranları və şəhid ailələrinin verdikləri məlumatlara istinad olunmaqla hazırlanıb. "Əsgər" qəzeti redaksiyasının (Respublikamızda çap olunan qəzetlər arasında "Əsgər" qəzeti şəhidlər haqqında ən çox məqalə dərc edilən mətbuat orqanıdır - Y.A.) bu mövzunun işıqlandırılması yönündə gördüyü işlər bir mərama xidmət edir – heç bir şəhid hərbi qulluqçumuz unudulmasın, onların şərəfli döyüş yolu mətbuat səhifələrində və xüsusi nəşrlərdə öz əksini tapsın. Cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi baxımından bu işlər vacib və çox gərəklidir.***

Daxili Qoşunların şəhid olmuş və itkin düşmüş hərbi qulluqçularının siyahısında adı qeyd olunan baş leytenant Hüseynov İlham Tofiq oğlu Vətənin harayına səs verərək, ölümlü-itimli döyüşlərə atılmış cəsur zabitlərimizdən biri olub.

O, 1955-ci il avqustun 25-də Neftçala rayonunda dünyaya göz açıb. Tofiq Hüseynov və Nura Hüseynovanın ailəsində 4 övlad dünyaya gəlib. İ.Hüseynov ailənin ortancıl övladı idi. Neftçala rayonundakı 1 saylı orta məktəbdə təhsil alıb. Orta məktəbdə savadlı, ictimai işlərdə fəal, nümunəvi davranış nümayiş etdirən şagird kimi tanınıb. Ailə tərbiyəsi onu şəxsi ləyaqət hissini qoruyan və uca tutan vətəndaş kimi formalaşdırıb. Doğmaları onunla bağlı xatirələrində müsbət insani keyfiyyətlərini xüsusi olaraq vurğulayırlar.

İ.Hüseynov 1973-1978-ci illərdə qəbul olunduğu Azərbaycan Politexnik İnstitutu (hazırda Azərbaycan Texniki Universiteti) və keçirildiyi Azərbaycan İnşaat Mühəndislər İnstitutunda (hazırda Azərbaycan Memarlıq və İnşaat Universiteti) ali təhsil alaraq, inşaatçı-mühəndis, texnoloq ixtisasına yiyələnib. 1978-ci ildən etibarən İ.Hüseynov əmək fəaliyyətinə başlayıb. Onun əmək kitabçasına əsaslanaraq, ayrı-ayrı idarə və müəssisələrdə çoxşaxəli fəaliyyətini, öz peşəsinə aid sahələrdə zəngin iş təcrübəsi topladığını və ona məsul vəzifələrin həvalə olunduğunu xüsusi qeyd etmək istəyirəm.

İ.Hüseynovun ali təhsil aldığı institutda hərbi kafedra olduğundan, o dövrün hərbi qanunvericiliyinin tələblərinə əsasən, müvafiq hərbi hazırlıq keçdikdən sonra (divizion artilleriyası taqımının komandiri profili üzrə - Y.A.) 1978-ci ildə ona "leytenant" ilk zabit rütbəsi verilib. 1979-cu il noyabrın 13-dən 1981-ci il oktyabrın 24-dək Cənubi Qafqaz hərbi dairəsində SSRİ Silahlı Qüvvələrinin 41200 saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçib, bu zaman taqım komandiri vəzifəsini icra edib.

1984-cü ildə isə İ.Hüseynova Qaradağ Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qaradağ Rayon İdarəsi) tərəfindən ehtiyatda olan zabit kimi "baş leytenant" rütbəsi verilib.

1984-cü ildə İ.Hüseynov Rahimə Abdulova ilə ailə qurub. 1986-cı ildə qızı Lalə, 1989-cu ildə isə oğlu İslam dünyaya gəlib. Qayğıkeş ailə başçısı, bacarıqlı mütəxəssis, vətənpərvər vətəndaş olan İ.Hüseynov qohum-əqrəba, qonşular, yoldaşları arasında, habelə işlədiyi əmək kollektivlərində hörmət sahibi idi.

Ermənistan-Azərbaycan hərbi münaqişəsinin başlaması nəticəsində baş verən hadisələr bütün respublikamızda təlatüm yaratmışdı. 1988-1991-ci illərdə münaqişənin getdikcə dərinləşməsi gerçəkliyində bunun amansız bir müharibəyə çevrildiyini görməmək mümkün deyildi. Qaçqınlar və məcburi köçkünlər dalğası, terror aktları, yaşayış məntəqələrimizin atəşə tutulması, soydaşlarımızın münaqişə zəminində qətlə yetirilməsi xalqımızı hiddətləndirmişdi.

1992-ci il fevral ayının 26-da Xocalıda ermənilər dəhşətli soyqırım törətdilər. Həmin ilin may ayında Şuşa və Laçın rayonları işğal olundu. O dövrdə artıq müstəqil ölkə olan Azərbaycan Ermənistanın hərbi təcavüzü qarşısında təkbaşına qalmışdı.

Ailə üzvlərinin dediyinə görə, xalqımızın başına gələn bu fəlakət İ.Hüseynovu da dərindən sarsıtmışdı. O, işlədiyi əmək kollektivi vasitəsilə yeni formalaşan ordumuza, qaçqın və məcburi köçkünlərə maddi və mənəvi köməklik göstərməyə çalışırdı.

1992-ci il iyun ayının 19-da Qaradağ Rayon Hərbi Komissarlığı tərəfindən ehtiyatda olan zabit kimi hərbi xidmətə çağırılmış baş leytenant İ.Hüseynov Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunub. O, Daxili Qoşunlar Komandanının sərəncamına keçirilib. Bu barədə Daxili Qoşunların Arxivindən verilən 526 nömrəli, 20.08.2018-ci il tarixli arayışda qeyd edilib.



**ŞƏHİD İLHAM HÜSEYNOV**

Həmin vaxt Ermənistan-Azərbaycan sərhəddində və Dağlıq Qarabağda erməni işğalçıları ilə şiddətli döyüşlər gedirdi. Daxili Qoşunların şəxsi heyəti 1992-ci il martın 12-dən etibarən ön cəbhədə torpaqlarımızın müdafiəsində dayanırdı. 1992-ci ilin iyun ayında isə döyüş bölgəsində Daxili Qoşunların daimi dislokasiya üçün hərbi hissələri formalaşdırılmışdı.

Baş leytenant İ.Hüseynov 1992-ci ilin 19 iyun – 27 iyul tarixlərində Daxili Qoşunlar Komandanının sərəncamında olan zabit kimi fəaliyyət göstərib və Daxili Qoşunların Baş İdarəsindən ön cəbhəyə göndərilib. Burada Tərtər-Ağdərə istiqamətində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Erməni işğalçılarına qarşı döyüşlərdə cəsarətli və qorxmaz zabit kimi vuruşaraq şəxsi heyətə nümunə olub. Onun olduqca qısa hərbi xidmət və döyüş yolu keçməsinə baxmayaraq, bu müddətdə heç də hər bir hərbi qulluqçunun üzləşmədiyi ağır müharibə sınaqlarını yaşayıb.

Zabitin son döyüşü Ağdərə rayonunun Möhrətağ (bəzi mənbələrdə Mehrataq) kəndində (hazırda Kiçik Qarabəy, Tərtər rayonunun inzibati ərazisinə daxildir, işğal altındadır – Y.A.) olub. Daxili Qoşunlar Komandanının 57 nömrəli, 21.01.1993-cü il tarixli şəxsi heyət üzrə əmrindən çıxarışda baş leytenant İ.Hüseynovun Ağdərə rayonunun Mehrataq kəndində xidməti vəzifəsini yerinə yetirərkən döyüşdə həlak olduğu qeyd edilib. Həmin əmrlə zabitin adı şəxsi heyətin siyahısından çıxarılıb.

Tərtib olunmuş IV-JQ 401710 nömrəli, 06.04.1993-cü il tarixli ölüm haqqında şəhadətnamədə baş leytenant İ.Hüseynovun Ağdərə bölgəsində döyüş zamanı bədənin çoxlu odlu silah yaralarından həlak olduğu yazılıb.

Baş leytenant İ.Hüseynov son döyüşdə itkin düşüb. Bəzi döyüş iştirakçılarının verdikləri məlumata görə, o, ağır yaralanaraq həlak olub və meyiti düşmənin nəzarətinə keçən ərazidə qalıb. Müharibədən cənazəsi belə gətirilməmiş, məzarı olmayan onlarla şəhid hərbi qulluqçumuz var. Bu da acı bir müharibə reallığıdır.

Azərbaycan Respublikası Prezidentinin 12.03.2009-cu il tarixli, 204 nömrəli Sərəncamı ilə baş leytenant İ.Hüseynov "İgidliyə görə" medalı ilə təltif olunub (ölümündən sonra).

2007-ci ildə "Təhsil" nəşriyyatında Təyyar Nəsirlinin müəllifi olduğu "Altında yatırkən də bizimdir yerin üstü" adlı kitab işıq üzü görüb. Kitabda şəhid hərbi qulluqçumuz barədə yazı verilib.

Şəhid hərbi qulluqçumuzun ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin edilib. Ailəsi hazırda paytaxtın Əhmədli qəsəbəsində yaşayır. İ.Hüseynovun valideynləri və bacısı da haqq dünyasındadır. Bu gün oğul nəvəsi onun adını daşıyır. Balaca İlham böyüyüb babası kimi Vətənin müdafiəsində dayanacaq və Daxili Qoşunların şəhid zabitinin nəvəsi olduğu üçün həmişə qürur duyacaq!

**Yalçın Abbasov**

*NÜMUNƏVİ XİDMƏT*

# HƏRBİ QULLUQÇUNUN XİDMƏTƏ VİCDANLI MÜNASİBƏTİ HƏMİŞƏ TƏQDİR OLUNAN CƏHƏTDİR



99713 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan çavuş Lamiyyə Allahverdiyeva 1985-ci il avqustun 15-də Gədəbəy rayonunda anadan olub. Orta təhsilini Məzahir Rüstəmov adına 42 saylı məktəbdə alıb. 2000-ci ildə orta təhsilini başa vurduqdan sonra Gəncə Məişət Xidməti Kollecini ibtidai sinif müəllimliyi ixtisası üzrə bitirib. 2011-ci il may ayının 3-dən hərbi hissənin mühəndis-kimya xidmətində kargüzar vəzifəsində xidmət edir. İşini "Daxili Qoşunlarda kimya xidmətinin təşkilinə dair Təlimat"ın tələblərinə əsasən təşkil edərək, anbara daxil olmuş və anbardan verilmiş material qiymətlilərin qeydiyyatının aparılmasına, mədaxil və məxaric sənədlərinin vaxtlı-vaxtında hazırlanmasına məsuliyyətlə yanaşır. Eyni zamanda, xidmətə daxil olan sənədləri qeydiyyata alır və aidiyyəti üzrə icraçılara çatdırır.

O, hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Xidmətdə əldə etdiyi müsbət nəticələrə, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində xüsusilə fərqləndiyinə, funksional vəzifələrinin icrasına vicdanlı münasibət bəslədiyinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Cari ilin yekun yoxlamasını da "əla" qiymətlə başa vurub.

Hərbi qulluqçumuzun iki övladı var. Qəribə səslənsə də, onun hərbi xidmətə marağı mərhum həyat yoldaşı kapitan Azad Allahverdiyevin vaxtsız vəfatından sonra yaranıb. Belə ki, A.Allahverdiyev 2010-cu il iyun ayının 20-də dünyasını dəyişəndən sonra o, bütün məsuliyyəti və hərbi işə olan sevgisi ilə yoldaşının yolunu davam etdirib.

Çavuş L.Allahverdiyeva 2016-cı ildən həm də hərbi hissənin qadınlar şurasının sədridir. İctimai təşkilatın sədri kimi hərbi hissənin qadın hərbi qulluqçularının müraciətlərini dinləyir, onlara sosial-məişət xarakterli problemlərinin həllində müvafiq köməklik göstərir, hərbi xidmətə yeni qəbul olunmuş qadın hərbi qulluqçuların xidmətə adaptasiya olunmaları üçün onlara tövsiyələr verir, xidməti fəaliyyət üzrə istiqamətləndirir, həmçinin, hərbi hissənin ictimai həyatında yaxından iştirak edir.



Digər intizamlı hərbi qulluqçumuz baş çavuş Elxan Manafov 1989-cu il dekabrın 30-da Şamaxı rayonunda anadan olub. Orta təhsillidir. Qobustan Rayonu Ağasəf Qayıbov adına tam orta məktəbdə təhsil alıb. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 2008-ci ilin yanvar ayından 2009-cu ilin iyul ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edib, manqa komandiri vəzifəsinə kimi yüksəlib.

2011-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində yarımqrup komandiri olub. 2018-ci ildən baş atıcı vəzifəsindədir. Xidməti vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu öz silahını həmişə saz, döyüşə hazır vəziyyətdə saxlayır, ondan istifadə və təhlükəsizlik qaydalarına ciddi əməl edir. Komandirlərinin əmr və göstərişlərini sözsüz, dəqiq şəkildə və əzmlə yerinə yetirir. Hərbi hissədə keçirilən yekun yoxlamasını "əla" qiymətlə bitirərək, fərqlənib. Hərbi hissə və dəstə komandiri tərəfindən mükafatlandırılıb.

Baş çavuş E.Manafov nümunəvi hərbi qulluqçu kimi ölkəmizdə keçirilən bir sıra yerli və beynəlxalq idman tədbirlərinə cəlb olunub, layiqli xidməti ilə Daxili Qoşunların adını hər zaman yüksək tutmağa çalışır.

**baş leytenant Xədicə Hacızadə**

# DÖVLƏT TƏLTİFLƏRİ QÜRUR, LƏYAQƏT VƏ FƏDAKARLIQ SİMVOLLARIDIR

Bu gün çox az sayda ölkə tapmaq olar ki, öz təltif sistemi olmasın. Suverenliyin və milli özünəməxsusluğun təcəssümü olan dövlət təltif sisteminin tərkibinə fəxri adlar, orden və medallar, digər mükafatlar daxildir. Qeyd olunan sahə dövlətin ictimai həyatında, dövlət-vətəndaş münasibətləri müstəvisində, cəmiyyətdə vətənpərvərlik tərbiyəsi prosesində xüsusi yer tutur. Təltif sistemi dövlətin öz vətəndaşlarının qəhrəmanlıq və fədakarlıq nümunələrinin, ləyaqətli əməyinin, mənəvi dəyərə malik yaradıcılıq töhfələrinin, elmi ixtiralarının, möhtəşəm idman nailiyyətlərinin qiymətləndirilməsini, cəmiyyətdə müsbət örnəklərin stimullaşdırılmasını özündə ehtiva edir.

Tarixi təcrübə göstərir ki, düzgün təməl üzərində formalaşmış, milli-mənəvi dəyərlərdən və ənənələrdən qaynaqlanan, xalqın mədəni irsinin elementlərini özündə əks etdirən, həmçinin, görkəmli şəxsiyyətlərin adını daşıyan və onların şərəfli yolunun davamçısı olmaq əqidəsini aşılayan təltiflər konkret fərd və ya fərdlər üçün vətəndaşı olduğu ölkəyə mənsubluğuna görə qürur və iftixar mənbəyinə çevrilirlər. Onu da qeyd etmək lazımdır ki, dövlət təltifləri ölkənin müstəqil yaşamaq və inkişaf etmək əzmini, habelə dövlətçilik məfkurəsinə sədaqətini, mədəni-intellektual potensialını, tarixi ənənələrinə bağlılığını göstərir.

Dövlət təltifləri təqdimolunma, istifadə, daşınma qaydalarına və əks etdirdikləri sahələrin xüsusiyyətlərinə görə fərqlənirlər. Bu məsələ dövlətin müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun öz təltif sistemi formalaşıb. Bu sahənin dövlət quruculuğu prosesində öz layiq olduğu yerini tapması, tam formalaşması və inkişafı Milli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin bilavasitə rəhbərliyi altında, onun tapşırıq və tövsiyələri əsasında təşkil edilmiş milli təltif sistemi mükəmməl hüquqi bazaya malikdir.

Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə dövlətimizin təltif sistemində bir çox yeniliklər həyata keçirilib, bu sahədə zamanın tələblərindən irəli gələn təkmilləşdirmə işləri aparılıb.



Azərbaycanın təltif sistemi tarixi qaynaqlarımıza, azərbaycançılıq ideologiyasına, müstəqillik rəmzlərinə, dövlət və ordu quruculuğu prinsiplərinə və əlbəttə, beynəlxalq təcrübədən irəli gələn məqamlara əsaslanır.

Respublikamızın müstəqil olduğu ötən 27 ildə təltif sisteminin tərkib hissəsi olan ayrı-ayrı fəxri adlar, orden və medallar, döş nişanları, digər mükafatlar təsis olunub. Fəxri adlar, orden və medallar, digər mükafatlar cəmiyyətimizin müxtəlif sahələrində çalışan vətəndaşlarımıza dövlət qayğısının təzahürüdür. Hər bir fəxri ad, orden və ya medal konkret fəaliyyət sahəsinə aid olmaqla, dövlətimiz qarşısında müstəsna xidmətlərə görə verilir.

Azərbaycan Respublikasında yüksək fərqlənmə dərəcəsi "Milli Qəhrəman" fəxri adıdır. Bu fəxri ad respublikamızın müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. "Milli Qəhrəman" fəxri adına layiq görülən şəxslərə "Qızıl ulduz" medalı və müvafiq vəsiqə təqdim olunur.

"Xalq yazıçısı", "Xalq rəssamı", "Əməkdar müəllim", "Əməkdar artist", "Əməkdar həkim", "Əməkdar incəsənət xadimi", "Əməkdar elm xadimi" və sair onlarla fəxri ad aidiyyəti sahələrdə uğurlu fəaliyyət nümunəsi göstərən, ölkəmizin tərəqqisinə layiqli töhfələri ilə fərqlənən, onun nüfuzunu yüksəldən şəxslərə verilir.

Milli Lider Heydər Əliyevin adını daşıyan "Heydər Əliyev" ordeni respublikamızın ən yüksək dövlət təltifidir. Bu ali dərəcəli ordenin təsis edilməsi Azərbaycan dövlətçiliyinin xilaskarı olan Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə böyük hörmət və ehtiramın nümunəsidir.

"İstiqlal", "Şah İsmayıl", "Azərbaycan Bayrağı", "Rəşadət", "Şərəf", "Şöhrət", "Dostluq", "Vətənə xidmətə görə" I, II, III dərəcəli, "Əmək" ordenləri də təltif sistemimizin tərkibinə daxildir və öz statutları ilə fərqlənirlər. Adları qeyd edilən ordenlərimiz təltif olunan vətəndaşlarımızda haqlı qürur hissi doğurur, dövlətçilik təfəkkürü, Vətənə sədaqətli olmaq əqidəsi aşılayır.

"Şah İsmayıl" ordeni təltif sistemimizin hərbi xidmət sahəsinə aid ali dərəcəli ordeni hesab olunur.

Ölkəmizin təltif sistemində müxtəlif statutlu və dərəcəli medallar da xüsusi yer tutur. Belə ki, "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" I, II, III dərəcəli, "Şücaətə görə", "Sərhəddə fərqlənməyə görə", "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələri veteranı", "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli, "Dövlət qulluğunda fərqlənməyə görə" və sair medalların təsis edilməsi də təltif sistemimizin zəngin potensialının və dövlət həyatının bütün mühüm istiqamətlərini əhatə etməsinin göstəricisidir.

Fəxri adlar, orden və medallar hərbi qulluqçuların həyatında da xüsusi rol oynayır. Dövlət mükafatı hərbi qulluqçunun mərdlik, ləyaqətlilik, vicdanlılıq, əzmkarlıq və fədakarlıq keyfiyyətlərinin yüksək dəyərləndirilməsi nümunəsidir. Bu amil hərbi qulluqçunun mənəvi-psixoloji hazırlığında, hərbi-vətənpərvərlik tərbiyəsində, qarşısına qoyulan xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində böyük ruhlandırıcı təsirə malikdir.

Təqdirəlayiq haldır ki, Daxili Qoşunların şəxsi heyəti arasında xeyli sayda hərbi qulluqçu fəxri adlara, orden və medallara layiq görülüb. Onlardan bir qismi bu mükafatlarla ölümündən sonra təltif olunub.

Hərbi xidmətdə dövlət mükafatına layiq görülmüş hərbi qulluqçuların timsalında müsbət örnəklərin təbliğ olunması da cəmiyyət üçün vacib məsələdir. Bu işdə xüsusən hərbi mətbuatın üzərinə böyük vəzifə düşür.

Qürur, ləyaqət, hünər və fədakarlıq simvolları olan dövlət təltiflərinə hörmətlə yanaşmaq vətəndaşlıq borcumuzdur.

**Yalçın Abbasov**

*Metodiki vəsait*

# DÖYÜŞ XİDMƏTİNDƏ ŞƏXSİ HEYƏTLƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ ÜZRƏ METODİKİ TÖVSİYƏLƏR



***Bu metodiki tövsiyələr komandir və rəis heyətini qarovul (döyüş) xidmətinə cəlb olunmuş şəxsi heyətə xidmətin aparılması qaydalarını öyrətmək, hərbi qulluqçulara qarovul xidmətinin və tərbiyə işinin mahiyyətini aşılamaq, vəzifəli şəxslərə qarovulda şəxsi heyətə tərbiyə işinin təşkili və aparılma qaydalarını izah etmək və onların (vəzifəli şəxslərin) döyüş xidmətinin təşkili üzrə metodiki bilik və bacarıqlarını artırmaq məqsədlərini daşıyır.***

***Metodiki tövsiyələr qarovul xidmətində mənəvi-psixoloji hazırlığın xüsusiyyətlərini, vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələrini, tərbiyə iş planının hazırlanmasını, qarovul və qoşun naryadının xidmət yerlərində təbliğat və təşviqat vasitələrinin hazırlanması məsələlərini əhatə edir.***

### Qarovul xidmətində mənəvi-psixoloji hazırlığın xüsusiyyətləri

Döyüş xidmətində tərbiyə işi qoşunlarda dövlət siyasətinin müntəzəm olaraq həyata keçirilməsinə, şəxsi heyətin əqidə möhkəmliyinə, mənəvi sayıqlığının və döyüş hazırlığının yüksəldilməsinə, hərbi intizamın möhkəmlənməsinə, onların silaha, döyüş texnikasına və xüsusi texnikaya mükəmməl yiyələnməsinə, xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə yönəldilir. Onun mahiyyəti müxtəlif xidməti-döyüş fəaliyyəti şəraitində komandir (rəis) tərəfindən qəbul olunmuş qərarın, tapşırığın yerinə yetirilmə xarakteri, şəraitin xüsusiyyətləri, şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti ilə müəyyən edilir.

Hərbi şəhərciklərin, obyektlərin qorunması üzrə qarovullarda və digər döyüş xidmətlərində mənəvi-psixoloji hazırlığın təşkilinin xüsusiyyətləri onunla şərtlənir ki, qarovula təyin olunan bölmə daimi yerləşmə məntəqəsində xidməti-döyüş tapşırığını yerinə yetirir. Ərazidə yerdəyişmənin məhdudlaşdırılması, bir qayda olaraq, əldə silah daima hərbi şəhərcikdə və qarovulda olmaq şəxsi heyətin uzun müddət bölmənin kollektivindən ayrı olmasına gətirib çıxarır.

Bununla yanaşı, xidmətdə olarkən çevik hərəkət etmək və düşünmək, diqqətlə müşahidə aparmaq, vəziyyəti sərbəst qiymətləndirmək, qərar qəbul etmək və onu təcili icra etmək üçün daimi hazırlıq tələb olunur. Mövcud şərait hərbi qulluqçuları gözlənilən təhlükə barədə düşünməyə vadar edir. Bu səbəbdən də şəxsi heyətin gündəlik xidmətinin, həyatının və məişətinin əhəmiyyətli dərəcədə fiziki və mənəvi gərginliklə bağlı olması sözsüz ki, onun psixikasına, fiziki fəallığına neqativ təsir göstərməyə bilməz.

Yuxarıda sadalananlar qarovulda və digər döyüş xidmətlərində mənəvi-psixoloji hazırlığın təşkilinin xüsusiyyətlərinin ciddiliyini artırır. Bir sözlə, döyüş xidmətinin xüsusiyyətləri, bir qayda olaraq, digər xidmətlərdən aşağıdakı hallarla fərqlənir:

- ekstremal vəziyyət və gərginliyin artması (həyat və sağlamlıq üçün təhlükənin artması və nəticədə qorxu və dəhşət hissinin yaranması);
- hərbi qulluqçuların yüksək sayıqlıq nümunələrinin, bacarıqlı və qətiyyətli hərəkətlərinin nümayişi;
- məsuliyyət hissinin artırılması (bütün çətinliklərin öhdəsindən gəlmək);
- mənəvi-fiziki enerjinin itirilməsi;
- hərbi qulluqçuların, hərbi kollektivlərin əvvəllər rast gəlmədikləri qeyri-adi, xüsusi və qəfləti tapşırıqlarla qarşılaşması.

Bu sahədə tərbiyə işi daim və vəziyyət gərginləşdikcə daha fəal aparılmalı, məqsədyönlü, konkret, şəraitə uyğun, çevik və təsirli olmalıdır.

Xidmətdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin qorunub saxlanmasında tərbiyə işinin vacib üsullarından biri hesab olunan fərdi tərbiyə işindən istifadə etmək bütün vəzifəli şəxslərin borcudur. Xüsusilə xidmətdə çətinliklərlə üzləşən, xidmətə az bir müddətdə cəlb olunan və tələb olunan, ehtiyac bilinən hərbi qulluqçularla yoxlayan şəxslər tərəfindən fərdi söhbətin aparılması məsləhətdir.

### Vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələri və tərbiyə işi planının hazırlanması

Tərbiyə işi qarovulun şəxsi heyəti ilə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi müddətinə təşkil olunur. O, bütün hərbçilər tərəfindən yüksək döyüş hazırlığının saxlanılması, sayıqlığa, hərbi intizama, qanunçuluğa riayət olunması, döyüş xidmətinin nümunəvi aparılmasının təmin edilməsi məqsədini daşıyır.

Komandirlər və onların tərbiyə işləri üzrə müavinləri hərbi şəhərciklərin, obyektlərin mühafizəsi üzrə qarovulun döyüş xidmətində mənəvi-psixoloji hazırlığını birbaşa təşkil edir və həyata keçirirlər. Onların vəzifəsidir:

- qarovula (döyüş xidmətinə) cəlb olunan şəxsi heyətin seçilməsində, təlimatlandırılmasında iştirak etmək;
- şəxsi heyəti əməliyyat şəraiti barədə məlumatlandırmaq, qarşıya qoyulmuş tapşırıqları, əmr və göstərişləri, onların icra olunma qaydalarını izah etmək;
- şəxsi heyətlə dövlət əhəmiyyətli işlər haqqında söhbət və hüquqi tərbiyə işi aparmaq;
- şəxsi heyətin mənəvi və işgüzar keyfiyyətləri nəzərə alınmaqla növbələrə, postlara seçmək və yerləşdirmək;
- qarovulun (qoşun naryadının) şəxsi heyətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı yüksək sayıqlıq və məsuliyyət hissi tərbiyə etmək, onlarda döyüş xidmətinin aparılması qaydalarının dərindən öyrənilməsinə həvəs yaratmaq, döyüş xidmətinin qabaqcıl təcrübəsini xidmətdə tətbiq etmək;
- daim şəxsi heyətin əhval-ruhiyyəsini, mənəvi-psixoloji vəziyyətini öyrənmək, onları döyüş xidməti apararkən çətinliklərin öhdəsindən gəlməyə və qətiyyətli olmağa



səfərbər etmək;
- şəxsi heyətin döyüş xidmətinin aparılması üçün bütün zəruri əmlaklarla təmin olunmasına qayğı göstərmək;
- döyüş xidmətində mənəvi-psixoloji hazırlığı təşkil etmək, zabitləri, gizirləri və fəalları tədbirlərin keçirilməsinə cəlb etmək;
- fəalları hazırlamaq və qarovula (qoşun naryadına) cəlb etmək, onların qabaqcıl təcrübəsini ümumiləşdirmək və tərbiyə işi tədbirlərinin keçirilməsini öyrətmək;
- bir və ya bir neçə sutkalıq təyin olunmuş hər bir qarovul və qoşun naryadı üçün tərbiyə işi planı hazırlamaq, orada fəalların tərkibi və yerləşməsini, hansı tədbirin, kiminlə və kim tərəfindən keçiriləcəyini göstərməkdir.

**Döyüş xidmətinə cəlb edilən qarovulun şəxsi heyəti üçün tərbiyə işi planını tərtib edərkən bölmə komandirlərinin tərbiyə işləri üzrə müavinləri aşağıdakı tədbirləri nəzərə almalıdırlar:**

- Respublikada və regionda baş verən əsas hadisələrin, hərbi hissə və bölmələrin həyatı barədə məlumatların və əməliyyat şəraitinin çatdırılması;
- təhlükəsizlik qaydalarının öyrənilməsi və məqbulların qəbul edilməsi;
- nizamnamələrin və xidmət üzrə təlimatların öyrənilməsi;
- döyüş xidməti aparılarkən qarşılıqlı yardım göstərilməsi, fərdi və qrup halında söhbətlərin aparılması;
- fəalların təlimatlandırılması və tapşırıqların verilməsi;
- ictimai-siyasi hazırlıq mövzuları üzrə materialların öyrənilməsi və təkrarlanması;
- bədii ədəbiyyatın mütaliəsi;
- dövri mətbuatdan məqalələrin kollektiv şəkildə oxunması və müzakirəsi;
- respublikanın və dünyanın siyasi xəritəsinin öyrənilməsi;
- radioverilişlərinin dinlənilməsi;
- "Döyüş vərəqi"nin və "Şimşək"lərin buraxılması;
- stolüstü oyunların keçirilməsi;
- xidmətə yekunların vurulması.

İkinövbəli, həmçinin, yarımsutkalıq təyin olunmuş qarovul və qoşun naryadında qarovul (qoşun naryadı) rəisi üçün tərbiyə işi üzrə fərdi tapşırıq tərtib edilir.

Xidmətin hazırlıq dövründə qarovul (qoşun naryadı) rəisləri, onların köməkçiləri və fəallarla təlimat məşğələsində 15 dəqiqə ərzində qanunçuluğa riayət olunması, möhkəm hərbi intizamın saxlanması, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətli icrasının təmin olunması, tərbiyə işi planında (fərdi tapşırıqda) nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə iş üsulları barəsində bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən təlimat keçirilir.

**Döyüş xidmətinə hazırlıq dövründə bölmə komandirlərinin tərbiyə işləri üzrə müavini:**

- döyüş xidmətinə cəlb olunan şəxsi heyətlə keçiriləcək tərbiyə işi planını hazırlayır;
- hərbi qulluqçuların qarovula, növbəyə, postlara seçilməsi və yerləşdirilməsində iştirak edir, döyüş xidmətinin şəraitini, xarakterini, xüsusiyyətlərini və yerinə yetirilmə qaydalarını izah edir;
- qarovulun (qoşun naryadının) fəallarını təyin edir;
- qarovul rəisinin və fəalların tapşırıq və vəzifələrini, döyüş xidmətində tərbiyə işi tədbirlərinin məzmununu, formasını və üsullarını müəyyən edir;
- fəalları lazımi ədəbiyyat, dövri mətbuat, "Döyüş vərəqi", "Şimşək", onların buraxılması üçün ləvazimatlar və stolüstü oyunlarla təmin edir;
- müxtəlif dərəcəli hərbi qulluqçularla xidməti-döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəxsi nümunə haqqında söhbətlər aparır;
- döyüş xidmətinə nəzarət etmək üçün təyin olunmuş şəxsləri tərbiyə işinin üsulları haqqında təlimatlandırır, onların qarovulda (qoşun naryadında) tərbiyə işi tədbirlərinin keçirilməsi üzrə hazırlığını yoxlayır.

**(davamı gələn sayımızda)**

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

*NÜMUNƏVİ İŞÇİ*

# İLLƏRİN TƏCRÜBƏSİ-PEŞƏKARLIQ

Qəzetimizdə vaxtaşırı xidmət təcrübəsinə, nizam-intizamına görə şəxsi heyət arasında seçilən hərbi qulluqçularımız və qoşunların tərkibində təqdirəlayiq fəaliyyət göstərən işçilər barədə materiallar dərc olunur. Bu qəbildən olan növbəti materialımız 16075 saylı hərbi hissənin təminat bölüyünün santexniki işçi Rüstəm Qasımov haqqında olacaq.

O, 1971-ci il martın 19-da Ermənistanın Sisiyan rayonunda dünyaya gəlib. Orta məktəbi 1987-ci ildə, böyüyüb boya-başa çatdığı rayonda bitirib. 1989-cu ildə müddətli həqiqi hərbi xidmətini Sovet ordusu sıralarında keçib. Elə həmin ərəfələrdə gənc oğlan gələcək həyatını hərbi xidmətlə bağlamağı, əsl hərbçi kimi yetişməyi qarşısına məqsəd qoyur. Müddətli həqiqi hərbi xidmətini başa vurandan sonra 1993-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayır.

Xidmətə başladığı ilk vaxtlardan cəbhə xəttində yaranmış gərginliklə əlaqədar olaraq döyüş bölgəsinə ezam olunur. Ağdam rayonu ərazisində gedən döyüşlərin fəal iştirakçılarından biri olub. Atəşkəs imzalandıqdan sonra isə xidmətini 16075 saylı hərbi hissənin xüsusi rabitə xidmətində texnik kimi davam etdirib. İntizamı və xidmətə münasibətilə seçilən baş gizir R.Qasımov üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşıb.



Daxili Qoşunlarda 23 il şərəflə xidmət edən hərbi qulluqçumuz müharibə veteranıdır. Vətənini qəlbən sevən, elinə-obasına bağlı olan sabiq hərbi qulluqçu hazırda santexnik vəzifəsini uğurla icra edir. İşgüzarlıq xüsusiyyətlərilə seçilən R.Qasımov, vəzifələrinin öhdəsindən layiqincə gəlir və hərbi hissə komandirinin etimadını doğruldur. Məsuliyyət hissini hər şeydən üstün tutan işçimiz veteran kimi hissəyə yeni qəbul olunan hərbi qulluqçulara şərəflə xidmət etməyi tövsiyə edir.

**leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR -*



### "Hydra 70" raketləri: Gələcək müharibə vasitəsi

"Hydra-70" raketləri ABŞ üçün hərbi sənaye vasitələri arasında ən əhəmiyyətli ixrac məhsulu olaraq yer almaqdadır. Ordu.az xəbər verir ki, bu barədə rəsmi məlumatı raketin əsas istehsalçısı "General Dynamics" şirkətinin mətbuat xidməti yayıb. Bildirilib ki, Nigeriya, Əfqanıstan, Avstraliya və İndoneziyaya satışı ilə bağlı ən son bağlanan 44,3 milyon dollarlıq müqavilə "Hydra-70" raketləri ilə bağlı 19-cu ixrac kontraktı idi. Belə ki, 2005-ci ildən satışına başlanılan raketlərin 30-a qədər ölkəyə satışına dair 19 müqavilə imzalanıb. Bu müqavilələr çərçivəsində 8 mindən çox raket istehlakçı dövlətlərə təqdim edilib ki, bunun qarşılığında da şirkət 4 milyard dollara yaxın gəlir əldə edib.




### Rusiya və Azərbaycan döyüş sursatlarının istehsalı sahəsində əməkdaşlıq edəcək

Rusiya və Azərbaycan döyüş sursatlarının istehsalı sahəsində əməkdaşlıq etməyi planlaşdırır. Bu barədə "AzeriDefence"yə Rusiyanın "Texmaş" Konsernindən məlumat verilib.

Bakıda keçirilmiş "ADEX-2018" beynəlxalq müdafiə sərgisi çərçivəsində "Texmaş" Konserninə daxil olan müəssisələrin nümayəndələri Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin "Telemexanika" zavoduna səfər edərək orada döyüş sursatlarının istehsal prosesi ilə tanış olublar.

"Heyət üzvləri Azərbaycan tərəfi ilə danışıqlar apararaq, komponentlərin tədarükü üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər", – deyə Konserndən bildirilib.



### Türkiyə yeni tank əleyhinə silah sistemini təkmilləşdirib

Ordu.az Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, "Nurol Holding" və "BAE Systems"in birgə təşəbbüsü olan FNSS yeni tank əleyhinə sistemi zirehli vasitənin qülləsinə yerləşdirilib və bu addım Türkiyə Quru Qoşunlarının silahlanmasında olan tank əleyhinə raketlərin döyüş effektivliyini artıracaq.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik İlham Tağıyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin komandanlığı **əsgər Daşdəmirli Sənan Vüqar oğlunun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565

Sayı 3000